*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11(5) 2024*

*Derleme Makale | Review Article*
*Geliş tarihi |Received:08.07.2024*
*Kabul tarihi |Accepted:10.09.2024*
*Yayın tarihi |Published:25.10.2024*

**Zəminə Əsgərova**

*https://orcid.org/0000-0003-1039-3146*
*Great scientific worker, Azerbaijan National Academy of Sciences, Bakykhanov Institute of History and Ethnography, Department of History of International Relations of Azerbaijan, Azerbaijan, zaminamamed@gmail.com*

*Atıf Künyesi | Citation Info*

Əsgərova, Z. (2024). Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti Arasında Elmi-Mədəni, Təhsil və Diaspor Əlaqələri (1991-2011). *Akademik Tarih ve Düşünce Dergisi, 11* (5), 3406-3424.

# Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti Arasında Elmi-Mədəni, Təhsil və Diaspor Əlaqələri (1991-2011)

***Xülasə***

*Azərbaycan Respublikasının çoxsahəli münasibətlərdə olduğu ölkələrdən biri də qardaş Türkiyə Cümhuriyyətidir. Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikasının xarici siyasətində prioritet istiqamət olan Türkiyə Cümhuriyyəti ilə əməkdaşlığın, təkcə siyasi və iqtisadi deyil, eyni zamanda mədəniyyət, elm və təhsil, diaspor sahələrində əlaqələrin öyrənilməsi böyük əhamiyyət kəsb edir. Məqalə hazırlanarkən müxtəlif mənbələrdən istifadə edilmişdir. Bu mənbələr içərisində arxiv materialları başlıca yer tutur. Bundan əlavə, Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etdikdən sonra Türkiyə Cümhuriyyəti ilə aralarında bağlanmış saziş, bəyanat və protokollardan istifadə edilmişdir.Məqalədə Azərbaycan Respublikasının Türkiyə Cümhuriyyəti ilə mədəniyyət, elm və təhsil, diaspor sahələrində əlaqələrini zəruri edən amillər araşdırılmışdır.*

***Açar sözlər:*** *Azərbaycan-Türkiyə əlaqələri, mədəni əlaqələr, elm və təhsil, diaspor*

BY NC
Creative Commons Licence

# Scientific-cultural, educational and diaspora relations between the Republic of Azerbaijan and the Republic of Turkey (1991-2011)

***Abstract***

*One of the countries with which the Republic of Azerbaijan has multi-sectoral relations is the brotherly Republic of Turkey. Cooperation with the Republic of Turkey, which has been a priority direction in the foreign policy of the Republic of Azerbaijan since its independence, is of great importance not only in the political and economic, but also in the cultural, scientific, educational and diaspora fields. Various sources were used in the preparation of the article. Among these sources, archive materials are the main ones. In addition, the agreements, declarations and protocols signed between the Republic of Azerbaijan and the Republic of Turkey after the restoration of state independence, the factors necessary for the relations between the Republic of Azerbaijan and the Republic of Turkey in the field of culture were used. Science and education and diaspora are analysed in the article.*

***Keywords:*** *Azerbaijan-Turkey relations, cultural relations, science and education, diaspora*

## Giriş

XX yüzilliyin son on illiyi və XXI əsrin əvvəlləri Azərbaycan dövlətinin inkişaf tarixində müstəsna əhəmiyyətə malik bir dövr olmuşdur. Demək olar ki, əsrin başlanğıcında Sovet Rusiyasının işğalı nəticəsində Azərbaycan Respublikasının itirilmiş müstəqilliyinin bərpası, onun möhkəmləndirilərək qorunması, respublikanın dünya birliyinə siyasi, iqtisadi və mədəni cəhətdən inteqrasiyası, milli elmimizin, təhsil və mədəniyyətimizin dünyanın inkişaf etmiş xalqlarının mədəni-mənəvi inkişaf səviyyəsi ilə qarşılıqlı əlaqədə inkişaf etdirilməsi, xarici ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələrin yaradılması və s. baxımından bir tarixi dövrdür.

Azərbaycan Respublikası 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra onun suverenliyini ilk olaraq tanıyan Türkiyə Cümhuriyyəti olmuşdur. Müstəqilliyin möhkəmləndirilməsi, Azərbaycanın iqtisadi gücünün artırılması və beynəlxalq aləmlə siyasi əlaqələrinin qurulması üçün etibarlı tərəfdaşların dəstəyinə böyük ehtiyac olduğu bir vaxtda Azərbaycan belə bir dəstəyi Türkiyə Cümhuriyyətindən almışdır. Azərbaycanın müstəqilliyi bərpa edildikdən sonra iki qardaş ölkə arasında münasibətlər daha sürətlə inkişaf etməyə başlamışdır. Bir millət, iki dövlət olan Azərbaycanla Türkiyə arasında əməkdaşlıq bütün sahələri əhatə edirdi. Öz növbəsində iki qardaş ölkə arasındakı əməkdaşlığın, təkcə siyasi və iqtisadi deyil, eyni zamanda mədəniyyət, elm və təhsil, diaspor sahələrində əlaqələrin yeni dövrün tələblərinə uyğun olaraq daha da inkişaf etdirilməsi üçün müvafiq addımlar atılmağa başladı. Tədqiq etdiyimiz bu mövzunun ayrı-ayrı məsələlərinin öyrənilməsində C.Cahangirli "Müasir dövrdə Azərbaycan-Türkiyə münasibətləri", F.Hüseynova "Müstəqillik dövründə

Azərbaycan-Türkiyə əlaqələrinin kulturoloji aspektləri (elm, təhsil, mədəniyyət)", E. Hüseynov "Azərbaycan Respublikasının Türkiyə ilə iqtisadi və mədəni əlaqələri (1991-1995-ci illər)", Ə.Əmədov "Azərbaycan beynəlxalq münasibətlərdə (Türkdilli dövlətlərlə əlaqələr. XX əsrin 90-cı illəri)", D. Səmədov XX əsrin 90-cı illərində Azərbaycan-Türkiyə elmi mədəni əlaqələri", İ. İsmayılov "Azərbaycan-Türkiyə əlaqələri XX əsrdə" və b. kimi müəlliflərin dəyərli araşdırmaları mühüm yer tutur. Adları çəkilən və çəkilməyən onlarca tədqiqat əsərlərində Azərbaycan-Türkiyə əlaqələrinin tarixi kökləri, mədəni aspektləri, inkişaf səviyyəsi, siyasi-iqtisadi, hüquqi amillər araşdırılmışdır. Azərbaycan-Türkiyə əlaqələri Türkiyədə də geniş tədqiqat obyekti olmuşdur. İbrahim Bozyel, Ali Kafkasyalı, Mehmet Saray, Bilal Şimşir və başqalarının tədqiqat əsərlərində Azərbaycan-Türkiyə əlaqələrinin tarixi və perspektivləri təhlil edilmişdir. Amma bu tədqiqat əlaqələrində Azərbaycan-Türkiyə əlaqələrində diasporun yeri və rolu, bu əlaqələrin diaspora təsiri ayrılıqda öyrənilməmişdir. Bu əsərlər konkret olaraq bizim tədqiq etdiyimiz mövzunu əks etdirmir. Tədqiq etdiyimiz mövzunun əsas məqsədi Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Türkiyə Cümhuriyyəti arasında elmi-mədəni, təhsil, diaspor sahələrində əlaqələrini, onların əsas forma və istiqamətlərini, həyata keçirilmə prosesini sistemli şəkildə araşdırmaq, əhəmiyyətini göstərməkdən ibarətdir. Mövzunun elmi yeniliyi burada irəli sürülmüş məsələlərin məzmunu və xarakteri ilə müəyyən olunur. İlk dəfə olaraq Azərbaycan Türkiyə arasında elmi-mədəni, təhsil əlaqələrinin Azərbaycan diasporunun formalaşmasına təsiri araşdırılır. Bu baxımdan ölkələrimiz arasında bütün sahələrdə olduğu kimi mədəniyyət, elm və təhsil, diaspor sahəsində əlaqələrin öyrənilməsi aktuallıq kəsb edir.

## 1. Mədəni əlaqələr

Münasibətlərin mühüm forması olan mədəni əlaqələr Azərbaycan ilə Türkiyə arasında orta əsrlər dövründən mövcud olmuşdur. Lakin sovet dönəmində bu əlaqələr məlum səbəblər üzündən çox zəif olmuşdur. Sovet dövləti Azərbaycanın Türkiyə ilə olan mədəni əlaqələrinə qısqanc münasibət bəsləyərək iki qardaş xalqın təbii proses olan yaxınlaşmasına ciddi maneçilik törədirdi. Lakin bu təzyiqlərə və maneələrə məhəl qoymayan xalqlarımız bir-birlərinə yaxınlaşmaq üçün həmişə təxirəsalınmaz tədbirlər həyata keçirmişlər.

Ədəbi-mədəni əlaqələr 80-ci illərin sonunda artıq daha geniş forma almışdır. Bunun nəticəsi olaraq, Azərbaycanın klassikləri ilə yanaşı müasir yazıçılarının əsərləri də Türkiyədə rəğbətlə qarşılanmışdır. 1987-ci ildə Türkiyədə Azərbaycan nəsri və poeziyası antologiyası nəşr olundu. Böyük Azərbaycan şairi S.Vurğunun 80 illik yubileyi münasibəti ilə onun əsərləri Türkiyədə kütləvi tirajla çap edildi (Əhmədov, 2009). 1990-cı il yanvar ayının 5-dən 10-a kimi Azərbaycan Respublikasından olan nümayəndə heyəti Türkiyədə olmuşdur. Səfər zamanı

Türkiyə ilə mədəni və elmi mübadilənin təşkili və genişləndirilməsi barədə protokol imzalanmışdır. Elə həmin ilin oktyabr ayında isə Azərbaycan Yazıçılar İttifaqı ilə Türkiyənin Yazıçılar Birliyi arasında və iki ölkə mədəniyyət nazirlikləri arasında əməkdaşlıq haqqında müqavilələr imzalanmışdır (Qasımov, 1992). Bununla da SSRİ-nin dağılması ərəfəsində Azərbaycan ilə Türkiyə arasında müstəqil olaraq əməkdaşlığın müxtəlif istiqamətləri üzrə mədəni əlaqələrin mühüm formalarından biri ədəbi-mədəni əlaqələr olmuşdur.

Türkiyə və Azərbaycan Respublikalarının mədəniyyət nazirlikəri arasında 2 dekabr 1992-ci ildə Bakıda imzalanmış razılıq sənədi Azərbaycanın Türkiyə ilə mədəniyyət sahəsində əməkdaşlıq üçün daha geniş imkanlar açdı. Bu sənəddə göstərilir ki, ikili mədəni əlaqələrin daha da inkişaf etdirilməsi və əməkdaşlığın gücləndirilməsi məqsədilə Türkiyə və Azərbaycan respublikalarının mədəniyyət nazirlikləri arasında aşağıdakı xüsuslarda razılığa gəlmişlər: “Hər iki ölkənin ziyalıları və sənətçiləri “İki toplum tək kültür” temasını izləyərək, qarşılıqlı toplantılar düzənləmək.

Hər iki ölkə qarşılıqlı olaraq plastik və tətbiqi sənətlər, musiqi alətləri, əl yazmaları və bənzəri sahələrdə sərgilər açmaq” (Türkiye ile Türk Cumhuriyyetleri ve Türk toplumları arasında yapılan anlaşmalar, ilişkiler ve faaliyyetler (II kitab), 1993). Bu xüsusda 1992 və 1994-cü illərdə Ankarada Türk Dünyası Yazıçılarının I və II Qurultayları keçirildi. Müxtəlif ölkələrdən gəlmiş yazıçıların və alimlərin iştirakı ilə keçirilən məclisdə Azərbaycanlı yazıçılar da iştirak edirdilər. Hər iki Qurultayda ədəbiyyat və incəsənətimizin, elmimizin inkişafına dair, qarşılıqlı əlaqələr, dünya mədəniyyəti ilə təmaslar barədə mühüm məsələlər qaldırılmış və qərarlar qəbul edilmişdir. O sıradan Azərbaycanın Qarabağ məsələsində haqlı mövqeyini dəstəkləyən bəyannamə də yekdilliklə qəbul edildi.[1] II Qurultayda III Qurultayın 1996-cı ildə Bakıda keçirilməsi haqqında təklif irəli sürüldü. 1996-ci ildə Türk Dünyasının yazıçıları Bakıda toplaşdılar. Türk dünyasının, türk xalqlarının, ölkələrin yazıçılarının III Qurultayının Azərbaycanda keçirilməsi əlamətdar hadisə olaraq, Azərbaycan Respublikasına, xalqına olan hörmət və ehtiramın təzahürü idi. Qurultayda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev geniş və məzmunlu nitqi ilə türk dünyasının yazıçılarını salamladı:

*“Əmin olduğumu bildirmək istəyirəm ki, türk dünyasının yazıçıları və bizim ölkələrimiz, xalqlarımız bu işi davam etdirəcəklər, türkdilli xalqların, ölkələrin yazıçıları gündən-günə bir-birinə yaxınlaşacaq, bir-birinə kömək edəcək, xalqlarımızın ədəbiyyatını, mədəniyyətini, keçmişini, bu gününü daha geniş təhlil edib yeni-yeni dəyərli əsərlər yaradacaqlar”* (Əliyev,

[1] Bakıda Türk dünyası yazıçılarının III qurultayının keçirilməsi barədə: Azərbaycan Milli Dövlət Arxivi: f. 3189, siy. 4, s. vər. 161, vər. 15.

1998). Daha sonra Prezident H. Əliyev geniş məzmunlu nitqində əsası 1992-ci ildə Türkiyədə qoyulmuş Türk dünyası yazıçılarının qurultayının keçirilməsinin ənənəyə çevrilməsini alqışlamışdır. 1992-ci ildə Türkiyədə, Ankarada, Türkiyə Cümhuriyyətinin, onun mərhum prezidenti Turqut Özalın təşəbbüsü ilə başlanan bu qurultay türk xalqlarının, türk dünyasının qədim, böyük tarixini yenidən canlandırmaq üçün dəyərli təşəbbüs olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyəyə 1994-cü il fevralın 8-dən 11-dək davam edən ilk rəsmi səfəri ikitərəfli əlaqələrin inkişafına təkan verdi. Ankarada aparılan danışıqlardan sonra fevralın 9-da Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında protokol, mədəniyyət sahəsində əməkdaşlıq haqqında saziş imzalandı (Azərbaycan-Türkiyə əlaqələri və Heydər Əliyev (1-ci kitab), 1991-2001, 2002). Müdrik rəhbərin bu səfəri zamanı bu ölkədə yaşayan azərbaycanlılarla da görüşü olmuşdur. Həmin görüşdə Heydər Əliyev Azərbaycanla-Türkiyə arasındakı dostluq və qardaşlıq münasibətlərinin möhkəmləndirilməsini xüsusi olaraq vurğulamışdır:

*"Tarixə nəzər salsaq bir daha görərik ki, Türkiyə ilə Azərbaycan bir xalq, bir millət kimi qəbul olunub. Azərbaycanlıların ən çox yaşadığı ölkələrdən biri də Türkiyədir. Biz istəyirik ki, burada da, bütün dünyada da azərbaycanlılar bir olsunlar"* (Azərbaycan diasporuna dövlət qayğısı, Heydər Əliyevin çıxışları, 2003). Prezident Heydər Əliyevin Türkiyəyə daha bir səfəri 1994-cü ilin noyabr ayının 1-də klassik Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi münasibəti ilə Türkiyədə keçirilən yubiley tədbirində iştirakı olmuşdur. Ankara yaxınlığındakı Bilkənt Universitet şəhərciyində dahi Azərbaycan şairi Məhəmməd Füzulinin tədbirinin açılışında çıxış edərək qeyd etmişdir ki, "Azərbaycanın və bütün türk dünyasının böyük şairi, mütəfəkkir insan Məhəmməd Füzulinin yubileyinin həm Azərbaycanda, həm Türkiyədə, həm də başqa türk dövlətlərində keçirilməsi onu göstərir ki, biz keçmişimizə, ədəbi irsimizə böyük hörmət və ehtiramla yanaşırıq, eyni zamanda milli köklərimiz, birgə tariximiz əsrlər boyu bizi bir-birimizə yaxın edib, bir-birimizə bağlayıb, indi daha sıx bağlayır" (Bir Millet İki Devlet. (Ulu Önder Haydar Aliyevin Azerbaycan-Türkiye ilişkileri hakkında nutukları ve konuşmaları, 2023). Azərbaycan mədəniyyətini qardaş Türkiyədə təbliğ edən milli diaspor təşkilatlarından olan Azərbaycanlıların Mədəni və Qarşılıqlı Əlaqə Cəmiyyəti 1989-cu ildə yaradılmışdır (Abdullayev, 1997). Cəmiyyətin qarşısında duran əsas vəzifə Azərbaycan mədəniyyətini Türkiyədə geniş yaymaqdan ibarət idi. Cəmiyyət tərəfindən özündə Azərbaycan müəlliflərinin şer və nəsr əsərlərini əks etdirən "Azərbaycan türkləri" və "Xəzər" qəzetləri buraxılırdı. Bu nəşrlərin səhifələrində bədii əsərlərlə yanaşı, Azərbaycanın milli adət və ənənələri haqqında yazılar dərc olunurdu.

Cəmiyyətin qarşısına qoyduğu əsas məqsədlərdən biri də təkcə Azərbaycanla deyil, dünyada yaşayan azərbaycanlılarla da əlaqə yaratmaq və möhkəmləndirmək idi.

Türkiyə ilə Azərbaycan arasında milli mədəniyyəti birgə inkişaf etdirmək məqsədlidir. Hələ 1994-cü il fevral ayının 8-11-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Respublikasına ilk rəsmi səfəri zamanı iki ölkə arasında 16 sənəd imzalanmışdır. Əsrlərlə formalaşan Türkiyə-Azərbaycan dostluğu bu rəsmi səfərdən başlayaraq yeni bir forma kəsb etdi və rasional bazaya əsaslanan bir təməl əsasında inkişaf etməyə başladı (Heydər Əliyev və Şərq, 2002). Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arxivləri arasında da həmin dövrdən işgüzar əlaqələr yaranmışdır. Bu sahədə əməkdaşlığın daha da genişləndirilməsi məqsədilə iki ölkənin müvafiq təşkilatları "Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Baş Arxiv İdarəsi və Türkiyə Cümhuriyyəti Baş Bakanlıq Dövlət Arxivləri Genel Müdirliyi arasında 1998-2000-ci illərdə əməkdaşlıq haqqında" on maddədən ibarət Protokol imzalanmışdır.[2] Əməkdaşlıq Protokoluna əsasən hər iki ölkə dövlət arxivləri iş birliyinin inkişaf etdirilməsi, dostluq və qardaşlıq əlaqələrinin qüvvətləndirilməsi məqsədilə arxiv sahəsində qarşılıqlı əlaqələri möhkəmləndirmək arzusundan çıxış edərək 1998-2000-ci illər üçün aşağıdakı fəaliyyət sahələrinin həyata keçirilməsində razılığa gəlmişlər:

Tərəflər, arxiv işi sahəsindəki milli mövzulara uyğun olaraq arxiv sənədlərindən qarşılıqlı faydanlanmaq, iki ölkənin əlaqələrinə aid sənədlərin ayrılıqda və ya müştərək şəkildə nəşri, arxivlərdə istifadə olunan elektronik və müasir texnologiyanın tətbiqi ilə arxiv sahəsindəki təcrübələrdən qarşılıqlı faydalanmağı və bu məqsədlə mütəxəssis kadrların mübadiləsini həyata keçirirlər.

O zaman Türkiyə Cümhuriyyəti Baş Bakanlıq Dövlət Arxivləri Genel Müdirliyi adlanan qurum arxiv sənədlərinin yaranması, təsbiti, mühafizəsi, təsnifi və qiymətləndirilməsi sahəsindəki təcrübələrindən Azərbaycan Respublikası Dövlət Arxivləri əməkdaşlarının istifadəsi üçün köməklik göstərir. Tərəflər, qarşılıqlı olaraq xüsusi nəşrlərin mübadiləsini təşkil edir, bu sahədə xüsusi və elmi toplantılar keçirməyi və onların materiallarını çoxaltmağı öz öhdələrinə götürürlər.[3] Protokol Azərbaycan və türk dillərində tərtib edilmişdir.

Azərbaycan və Türkiyə arasında əlaqələr hər zaman qardaşlıq zəminində inkişaf etmişdir. Azərbaycan Respublikasının Prezidenti H. Əliyev 2001-ci ildə Bakıda Atatürk Araşdırmalar Mərkəzi yaradılması barədə fərman vermiş, bununla da Türkiyə-Azərbaycan dostluğunun

---

[2] Azərbaycan və Türkiyə Respublikaıları arasında elmi-mədəni əməkdaşlığın inkişafı və s. barədə: Azərbaycan Milli Dövlət Arxivi: f. 3189, siy. 4, s. v. 247, vər. 68.
[3] Azərbaycan və Türkiyə Respublikaıları arasında elmi-mədəni əməkdaşlığın inkişafı və s. barədə: Azərbaycan Milli Dövlət Arxiv: f. 3189, siy. 4, s. v. 247, vər. 73.

əbədiləşdirilməsi yolunda daha bir qətiyyətli addım atmışdır. Mərkəz Mustafa Kamal Atatürkün irsinin, onun türk xalqlarının tarixində tutduğu yerin, ümumiyyətlə, türk tarixi və mədəniyyətinin daha dərindən öyrənilməsi və təbliğ olunması məqsədilə yaradılmış elmi araşdırmalar və mədəniyyət təşkilatıdır.[4] Mərkəzin əsas vəzifəsi Türkiyə Respublikasının banisi və ilk prezidenti Mustafa Kamal Atatürkün türk xalqlarının tarixində tutduğu mühüm yeri, onun xalqlarımızın inkişafındakı rolunu, ümumiyyətlə türk xalqlarının tarixi və mədəniyyətinin fundamental şəkildə hərtərəfli tədqiqi və onların zəngin irsinin təbliğ olunmasıdır.[5] Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında mədəni əlaqələrin inkişafında Azərbaycan incəsənət ustalarının və eləcə də türk sənətçilərinin qarşılıqlı səfərləri artıq ənənə şəklini almışdır.

Azərbaycan Dövlət Mahnı və rəqs ansamblının Bayburtda "Dədə Qorqud" folklor festivalında çıxışları, Azərbaycan Dövlət Simfonik orkestrinin Ankarada, İzmirdə və İstanbulda konsertləri, Azərbaycan Dövlət Kukla teatrının İkinci Beynəlxalq Adana teatr festivalında çıxışları, Gənc Tamaşaçılar teatrının sənət ustalarının "Altın-Poçt" toplantısında iştirakı, Mədəniyyət Nazirliyi Elmi-metodiki Mərkəzinin "Səyyah", Dövlət Uşaq Filarmoniyasının "Fərəh" kollektivlərinin Beynəlxalq Uşaq Festivallarında iştirakı, böyük türk alimi və Azərbaycana xüsusi məhəbbət bəsləyən İhsan Doğramacın 80 illiyinin Bakıda qeyd olunması, türk sənət ustalarının Bakıda keçirdikləri tədbirlər hər iki qardaş ölkənin adət və ənənələrinə, musiqi və teatr sənətinə və bütövlükdə mədəniyyətinə böyük maraq və qarşılıqlı rəğbətin ifadəsi idi.[6]

Türkiyənin müxtəlif sərgi salonlarında azərbaycanlı rəssamların əl işlərindən ibarət sərgilər təşkil edilərək, Türkiyə mətbuatında layiqincə qiymətləndirilmişdir. 1991-ci ildə Türkiyənin İstanbul şəhərində "Ramko" incəsənət mərkəzində Azərbaycan rəssamlarının əsərlərindən ibarət sərgi keçirildi. Azərbaycan vernisajı Türkiyədə böyük əks-sədaya səbəb olmuşdur. Həmin ilin aprel ayında Türkiyə Mədəniyyət Nazirliyinin dəvəti ilə Azərbaycan Rəssamlar İttifaqının 7 nəfərdən ibarət (E. Məmmədov, E. Şahtaxtinskaya, T. Ağababayev, M. Ağabəyov, S. Məmmədov, S. Namitkova, S. Qurbanov) nümayəndə heyəti Türkiyədə olmuşdur. Səfər zamanı əldə edilmiş razılaşmaya görə Ankara və İzmir şəhərlərində

---

[4] Azərbaycanda Atatürk Mərkəzi haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin fərmanı: Milli Dövlət Arxivi: f. 3189, siy. 4, s. v. 415, vər. 7.

[5] Azərbaycanda Atatürk Mərkəzi haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin fərmanı: Azərbaycan Milli Dövlət Arxivi: f. 3189, siy. 4, s. v. 415, vər. 8.

[6] Azərbaycan və Türkiyə münasibətləri arasında elm və təhsil, mədəniyyət sahələrində əlaqələrin genişləndirilməsi barədə Təhsil və Mədəniyyət Nazirliyi ilə yazışma: Azərbaycan Milli Dövlət Arxivi: f. 3189, siy. 4, s. v. 229, vər. 173.

Azərbaycan rəssamlarının 100-dən çox əsərlərindən ibarət böyük sərgilər keçirilmişdir.[7] Bodrum şəhərində keçirilən Beynəlxalq Xalça festivalında Azərbaycan Xalçası Dövlət muzeyinin əməkdaşları da iştirak etmiş və burada ecazkar Azərbaycan xalçalarını geniş nümayiş etdirmişlər (Əhmədov, 2009). Azərbaycan əməkdar incəsənət xadimi Vəcihə Səmədova adına bədii sərgi salonunda "Türk əl sənətçiləri sərgisi", "Türk qadınlarının əl sənəti" sərgisində qardaş ölkənin tətbiqi sənət nümunələri azərbaycanlı tamaşaçılar tərəfindən rəğbətlə qarşılanmışdır. Qarşılıqlı əməkdaşlığı daha da gücləndirmək məqsədilə Azərbaycan kollektivlərinin Türkiyədə keçirilən tədbirlərdə yaxından iştirakı, Türkiyədə keçirilən çoxsaylı festivallarda respublikamızın ayrı-ayrı regionlarından sənət ustalarının çıxışları qonşu ölkədə Azərbaycanın daha yaxından tanınmasına xidmət etmişdir.

Azərbaycan-Türkiyə mədəni əlaqələrinin ana xəttini təşkil edən, əlaqələrin perspektivlərini müəyyənləşdirən bu tarixi xronoloji təqdimat müstəqilliyimizin bərpasından sonra iki ölkə arasında elmi-mədəni əməkdaşlığın bütün sahələrinə işıq salmaqdadır. Belə bir etibarlı və möhtəşəm təməl üzərində qurulmuş əlaqələri isə Ümummilli liderin layiqli davamçısı Prezident İlham Əliyev inamlı surətdə davam etdirməkdədir. Prezident İlham Əliyev 2004-cü il aprelin 13-dən 15-dək Türkiyədə rəsmi səfərdə olarkən iki qardaş ölkə arasında digər sahələrdə olduğu kimi mədəniyyət sahələrində də qarşılıqlı mübadilə müzakirə edilmiş və "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Türkiyə Respublikasının Mədəniyyət və Turizm Nazirliyi arasında mədəni əməkdaşlıq haqqında Protokol" imzalanmışdır. Protokolda tərəflər mədəniyyət və turizm sahəsində əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini bildirmişlər.[8] İmzalanma mərasimindən sonra Türkiyə Prezidenti Əhməd Necdət Sezər və Azərbaycan Prezidenti İlham Əliyev çıxış edərək, ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin bundan sonra da genişləndirilməsi və dərinləşdirilməsinin əhəmiyyətini vurğuladılar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev səfər ərəfəsində Türkiyənin "Samanyolu" televiziyasına müsahibəsində qeyd etmişdir ki, "Biz – Türkiyə və Azərbaycan dünya birliyi üçün çox böyük töhfələr vermiş ölkələrik. Bizim xalqlarımızın çox böyük tarixi var, mədəni irsi var. Əlbəttə, ümid edirəm ki, bu səfərdən sonra qardaş ölkələrimiz arasında əlaqələr daha da möhkəmlənəcək, yeni layihələr üzərində işləyəcəyik, həmişə olduğu kimi, bir-birimizə dəstək, arxa olacağıq. Bizim gücümüz birlikdədir, biz bu siyasətə sadiqik, bu yolla gedəcəyik" (Əliyev, 2009). Azərbaycan ilə Türkiyə əlaqələrinin inkişafına olan belə yüksək

---

[7] Azərbaycan və Türkiyə münasibətləri arasında elm və təhsil, mədəniyyət sahələrində əlaqələrin genişləndirilməsi barədə Təhsil və Mədəniyyət Nazirliyi ilə yazışma: Azərbaycan Milli Dövlət Arxivi: f. 3189, siy. 4, s. v. 229, vər. 174.

[8] Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Beynəlxalq Əlaqələr Şöbəsinin Türkiyə Cümhuriyyəti ilə əməkdaşlıq üzrə qovluğu. 2003-2010-cu illər.

münasibət Türkiyə rəsmiləri tərəfindən də yüksək səviyyədə cavablandırılmışdır. Məsələn, 2005-ci il iyunun 30-da Türkiyənin Baş Naziri Rəcəb Tayyib Ərdoğan Azərbaycana səfəri zamanı müxtəlif mədəniyyət qurumlarındakı görüşlərdə bildirmişdir ki, möhkəm təməl üzərində qurulmuş Azərbaycan-Türkiyə münasibətləri bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

**2.Elm və təhsil əlaqələri**

1992-ci ilin əvvəllərində Türkiyə Cümhuriyyətinin Azərbaycanda diplomatik nümayəndəliyinin təşkilindən sonra əməkdaşlığın bütün sahələrindəki əlaqələrlə yanaşı elm və təhsil sahəsində də əməkdaşlığın inkişafı istiqamətində xüsusi mərhələyə qədəm qoymuş oldu. Hələ Azərbaycanın hüquqi cəhətdən müstəqilliyinin bərpasından əvvəl yəni, 1990-cı ilin yanvar ayının 1-də Türkiyə ilə elmi və mədəni mübadilə haqqında razılıq protokolu imzalanmışdır. Bu sənəd 1991-1992-ci illəri əhatə etməklə, 50 maddədən ibarət olmuş elm və mədəniyyət sahəsində əməkdaşlığın müxtəlif sahələrini əhatə etmişdir. Protokolun ilk 17 maddəsi birbaşa elm və təhsil sahəsində əlaqələrin təşkilinə həsr olunmuşdur (Səmədov, 2004). 1992-ci il 12 dekabr tarixində Türkiyənin Bilimsel və Texniki Araştırma Kurumu (Türkiyə elm və texnika üzrə tədqiqatlar qurumu) sədri professor, doktor T.Terzioğlunun Bakıya işgüzar səfəri çərçivəsində Azərbaycan MEA-da aparılan danışıqlar zamanı qardaş ölkələrin baş elmi idarələri arasında 11 maddədən ibarət müqavilə imzalandı.[9] Əməkdaşlığa dair imzalanmış bu müqavilədə aşağıdakı sahələr nəzərdə tutulurdu: riyaziyyat, fizika, astronomiya, kimya, ekologiya, informatika texnologiyası, tibb, inşaat, rabitə və nəqliyyat və b.

1992-ci ildə Türkiyənin müxtəlif elm mərkəzləri ilə də əlaqələr qurulmuşdur. Həmin ilin oktyabr ayında Azərbaycan MEA-sı Türkiyə Sosial İqtisadi və Siyasi araşdırmalar Vəqfi ilə birlikdə Bakı şəhərində "Demokratiyanın prinsipləri və Türkiyə təcrübəsi" mövzusu altında elmi konfrans keçirilmişdir. Konfransın keçirilməsində əsas məqsəd Avropa demokratik prinsipləri əsasında inkişaf edən cəmiyyətə və elmə mənsub olan Türkiyənin təcrübəsinin elmi əsaslarla öyrənilməsi idi (Əhmədov, 2009). Müstəqilliyin ilk illərindən başlayaraq Azərbaycan və Türkiyə alimləri arasında işgüzar elmi əlaqələr genişlənməyə başlamışdır. Ankara, İstanbul, Ərzurum, Konya universitetləri, habelə Türkiyənin TUBİTAK (Türkiyənin Bilimsel və Texniki Araşdırma Kurumu) elmi cəmiyyəti ilə geniş elmi əlaqələr yaranmışdır. Tərəflər riyaziyyat, yüksək enerji fizikası, geologiya, kimya, əkinçilik, habelə Xəzər dənizi və Qara dəniz ilə bağlı

[9] Azərbaycan Respublikası MEA-sı Xarici Əlaqələr Şöbəsinin türkdilli ölkələrlə əməkdaşlıq haqqında sənədlər qovluğu, 1991-2000-ci illər, v. 166.

problemlər və elmin bir sıra başqa sahələrində səmərəli fəaliyyət göstərmişlər.[10] 250-yə yaxın azərbaycanlı alim Türkiyəyə ezam olunmuş, müxtəlif elmi mərkəzlərdə elmi-pedaqoji fəaliyyət göstərmişlər. Apardıqları elmi işlərin nəticələrinə görə Türkiyə elmi mükafatları ilə təltif edilmişdilər. Tərəflər bir sıra böyük elmi konfrans və simpoziumlar keçirmişlər. Onlardan polimer üzrə simpoziumu (Ankara), III Türk-Azərbaycan riyaziyyatçılarının simpoziumunu (Trabzon), Azərbaycan mühacirət ədəbiyyatına həsr olunmuş elmi konfransı (Bakı) qeyd etmək olar.[11]

Demokratiya və bazar münasibətləri sisteminə qədəm qoymuş Azərbaycan Respublikasının gələcək inkişafı istiqamətlərinin müəyyənləşdirilməsi sahəsində Türkiyənin elmi-siyasi araşdırmalar mərkəzlərinin böyük rolu olmuşdur. Həmin elmi təşkilatlar Azərbaycanın sosial-siyasi sahədə çalışan alimləri ilə əməkdaşlıq etmişlər. Elmi əməkdaşlığa dair 1991-ci il 15 may tarixində Azərbaycan MEA ilə Ankara Universiteti arasında əməkdaşlığın genişləndirilməsi, gücləndirilməsi və gələcəkdə də inkişaf etdirilməsi məqsədilə 7 bənddən ibarət protokol imzalanmışdır.[12] Qarşılıqlı anlaşma şəraitində imzalanmış bu protokolda tərəflərin qarşılıqlı əməkdaşlığı sahələrinə daxil olan elmi mübadilə, elmi nəşrlərin mübadiləsi, birgə elmi konfrans və simpoziumların təşkil edilməsi və s. öz əksini tapmışdır.

Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan dövləti özünün beynəlxalq mədəni əməkdaşlıq fəaliyyətinin mühüm tərkib hissəsi olan təhsil sahəsində əlaqələrini yaradaraq inkişaf etdirməsi üçün səylərini daha da artırmışdır. Belə ki, Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Türkiyə Cümhuriyyəti Təhsil Nazirliyi arasında 1992-ci il 28 fevral tarixində ilk müqavilə imzalanmışdır. Bu müqavilədə iki qardaş ölkənin təhsil sistemi arasında və təhsilin bütün sahələri üzrə əməkdaşlıq, o cümlədən tələbə mübadiləsinin gələcəkdə daha da artırılması nəzərdə tutulmuşdur. Onu da qeyd etmək yerinə düşərdi ki, bu müqaviləyə əsasən 1992-1993-cü tədris ilində Azərbaycandan Türkiyənin müxtəlif ali məktəblərində təhsil almaq üçün 100 nəfər tələbə göndərilməsi nəzərdə tutulmuşdursa, faktiki olaraq bundan daha çox, yəni 1000 nəfərdən çox gənc göndərilmişdir (Türkiye ile Türk Cümhuriyyetleri ve Türk toplulukları arasında yapılmış anlaşmalar, ilişkiler ve failiyyetleri (II kitab) 1990-1993, 1993). Azərbaycanlı tələbələr Türkiyənin Ankara, İstanbul, İzmir, Konya, Trakya, Samsun, Trabzon, Bursa, Kayseri,

---

[10] Azərbaycan və Türkiyə münasibətləri arasında elm və təhsil, mədəniyyət sahəsində əlaqələrin genişləndirilməsi barədə Təhsil və Mədəniyyət Nazirliyi ilə yazışma: Azərbaycan Milli Dövlət Arxivi: f. 3189, siy. 4, s. v. 229, vər. 172.

[11] Azərbaycan və Türkiyə münasibətləri arasında elm və təhsil, mədəniyyət sahəsində əlaqələrin genişləndirilməsi barədə Təhsil və Mədəniyyət Nazirliyi ilə yazışma: Azərbaycan Milli Dövlət Arxivi: f. 3189, siy. 4, s. v. 229, vər. 173.

[12] Azərbaycan Respublikası MEA-sı Xarici Əlaqələr Şöbəsinin türkdilli ölkələrlə əməkdaşlıq haqqında sənədlər qovluğu, 1991-2000-ci illər, v. 32-34.

Sivas, Sparta, Kırıkkala, Adana və b. şəhərlərdə yerləşən 32 ali tədris müəssisələrində təhsil almışlar.

Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında 1994-cü il fevral ayının 9-da Ankarada təhsil və elm sahələrində əməkdaşlıq etmək və bu imkanları inkişaf etdirmək üçün 19 maddədən ibarət Protokol imzalandı.[13] Bu Protokolda nəzərdə tutulan bütün müddəalar Azərbaycan Respublikasının və Türkiyə Respublikasının qanunlarına uyğun şəkildə rəsmi kanallarla həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Tərəflər Azərbaycanda və Türkiyədə elm sahəsində fəaliyyət göstərən idarələrin əməkdaşlığını təşviq etmiş, öz aralarında əlaqələrin yaranması və inkişaf etdirilməsi üçün lazımi şərait yaratmışlar. 1996-cı ilin sonunda Türkiyə Milli Təhsil Nazirliyi tərəfindən orada təhsil alan azərbaycanlı tələbələrin aylıq təqaüdləri artırılmışdır. Müqavilənin müddəalarına əsasən iki ölkənin təhsil müəssisələri tərəfindən verilmiş təhsil sənədləri və tədris proqramlarının qarşılıqlı tanınması ilə bağlı işlər davam etdirilmişdir.[14] Təhsil sahəsində Azərbaycan-Türkiyə birgə Daimi komissiyasının sayca dördüncü toplantısı 30 may 1997-ci il tarixində Ankarada keçirilmişdir (Səmədov, 2004). İclasda əsas müzakirə obyekti təhsil sahəsində Azərbaycan və Türkiyə arasında əməkdaşlığın gələcək perspektivləri, sonrakı fəaliyyət prosesində bu əlaqələrin daha da inkişaf etdirilməsi və qarşıya çıxan çətinliklərin aradan qaldırılması yolları ilə bağlı bir sıra məsələlər nəzərdən keçirilmişdir.

Azərbaycan-Türkiyə təhsil əlaqələri sonrakı illərdə daha da inkişaf etmişdir. Yeni-yeni müqavilə və sazişlər bağlanmış, protokollar imzalanmışdır. Bu istiqamətdə Türkiyə Yüksək Öyrətim Kurumunun Azərbaycan Respublikası Təhsil Nazirliyi arasında ali təhsil və elmi sahələrdə 1998-ci ilin noyabr ayında imzalanmış olduğu protokolun böyük əhəmiyyəti olmuşdur.[15] Bu gün Türkiyənin elə bir universiteti yoxdur ki, orada Azərbaycandan gəlmiş alimlər, tələbələr olmasın. Azərbaycanlı alimlər qonşu qardaş ölkənin ali məktəblərində bacarıqlı müəllimlər kimi tanınırlar. Türkiyə Respublikasında müxtəlif dövrlərdə təhsil alan azərbaycanlıların bir hissəsi orada qalıb, fəaliyyətini davam etdirirlər. Bu da Türkiyədə Azərbaycan diasporunun sıralarının genişlənməsinə səbəb olur. Son dövrlərdə Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında hər bir sahədə əməkdaşlığın yüksək səviyyədə

---

[13] Azərbaycanla Türkiyə arasında təhsil və elm sahəsində əməkdaşlıq, ali təhsil müəssisələrinin əsasnamələrinin hazırlanması və s. məsələlər barədə: Azərbaycan Milli Dövlət Arxivi: f. 3189, siy. 4, s. v. 93, vər. 297.

[14] Azərbaycan və Türkiyə münasibətləri arasında elm və təhsil, mədəniyyət sahəsində əlaqələrin genişləndirilməsi barədə Təhsil və Mədəniyyət Nazirliyi ilə yazışma: Azərbaycan Milli Dövlət Arxivi: f. 3189, siy. 4, s. v. 229, vər. 175.

[15] Azərbaycan Respublikası Təhsil Nazirliyinin Xarici Əlaqələr şöbəsinin cari arxivi. Türkdilli ölkələrlə əməkdaşlıq üzrə iş qovluğu, 1991-2000-ci illər, v. 84.

olması Türkiyədə yaşayan azərbaycanlıların dövlət və cəmiyyət həyatındakı fəal iştirakı prosesinin daha da sürətlənməsinə təkan vermişdir.

**3.Diaspor əlaqələri**

Müstəqillik illərində inkişaf yolu keçən Azərbaycan diasporunun qarşısında duran əsas vəzifələrdən biri də digər xalqların diaspor təşkilatları ilə əlaqələr qurmaq, birgə əməkdaşlıq nəticəsində fəaliyyət göstərdiyi ölkələrdə öz mövqelərini möhkəmləndirmək idi. Bu sırada Azərbaycan diasporunun türk diaspor təşkilatları ilə əməkdaşlığı mühüm əhəmiyyət kəsb edirdi. Həmin dövrdə Azərbaycan diasporuna ən ciddi dəstək də məhz türk diasporundan gəlirdi. Diaspora həyatı ilə bağlı bir sıra mühüm əhəmiyyətli tədbirlərin qardaş ölkədə keçirilməsi faktı bunu təsdiqləmiş olur. Yaxın tarixə nəzər salsaq görərik ki, ilk dəfə olaraq dünya azərbaycanlılarının birliyinə yönələn və ətrafında dünyanın bir çox bölgəsində yaşayan soydaşlarımızı toplayan tədbirlər məhz Türkiyədə keçirilmişdir. 1989-cu ildə Türk Dünyası Ümumdünya Azərbaycanlılar Konqresi, 1990-cı ildə Türk Dünyası Araşdırmalar Vəqfinin təşəbbüsü ilə Kayseridə I Millətlərarası Böyük Azərbaycan Konqresi həmrəylik istiqamətində keçirilən tədbirlərdən olmuşdur (Əliyev, 2005). Ən əlamətdar hadisələrdən biri Türkiyədə "Azərbaycan Kültür və Dayanışma Dərnəyinin təşkilatçılığı ilə 1990-cı il noyabrın 3-dən 6-dək İstanbul şəhərində Birinci Millətlərarası Azərbaycan Türk Dərnəkləri qurultayının keçirilməsi oldu. Dünyanın müxtəlif ölkələrindəki – İngiltərə, Almaniya, Fransa, Norveç, İspaniya, Estoniya və b. Azərbaycan mərkəzlərinin nümayəndələrinin iştirakı ilə keçirilən qurultay yüksək səviyyədə baş tutdu. Qurultayın gördüyü mühüm işlərdən biri də Azərbaycanda baş verən hadisələrin obyektiv və operativ surətdə dünya ictimaiyyətinə çatdırılması oldu. Azərbaycanlılar arasında əlaqələrin güclənməsi məqsədilə "Dünya Azərbaycan-Türk Dərnəkləri Birliyinin Nizamnaməsi" təsdiq edildi. Qurultayın qəbul etdiyi qərarlar sırasında Bakıda "Həmvətənlərimiz" adlanan muzeyin yaradılması, informasiya işinin gücləndirilməsi, Azərbaycan təşkilatlarının bir mərkəz ətrafında birləşdirilməsi, konqresin işçi qrupunun yaradılması və s. daxil idi (Babanlı, 2016). Həmçinin Dağlıq Qarabağ məsələsində lobbiçilik etmək, beynəlxalq təşkilatlara mütəmadi müraciətlər ünvanlamaq da qəbul edilən qərarlar sırasında yer aldı.

Azərbaycan diasporunun türk diasporu, eləcə də türk xalqlarının diaspor təşkilatları ilə əlaqələrinin inkişaf etdirilməsi Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə ikinci dəfə qayıdışından sonra qabarıq şəkildə özünü büruzə verdi. Heydər Əliyevin Azərbaycanın dünyaya inteqrasiyasının strateji istiqamətlərini müəyyənləşdirərkən ölkəmizin türk dünyası, türk xalqları yaşayan ölkələrlə münasibətinə xüsusi yer ayrılmışdı. Bu kontekstdə

Azərbaycan-Türkiyə əlaqələrinin keyfiyyətcə yeni məcrada qurulması prioritet önəm kəsb edirdi. 1994-cü ilin fevral ayında Heydər Əliyev Türkiyə Cümhuriyyətinə səfəri zamanı bu ölkənin Böyük Millət Məclisində etdiyi tarixi çıxışı ilə iki ölkənin strateji tərəfdaşlığının ən mükəmməl formulunu səsləndirdi: "Azərbaycan və Türkiyə bir millət, iki dövlətdir". Ümummilli lider Heydər Əliyevin aforizmə çevrilmiş bu sözləri ölkələrimizin qardaşlıq münasibətlərinin kredosuna çevrildi. Ümummilli lider Azərbaycana rəhbərlik etdiyi 10 ildə dəfələrlə Türkiyədə səfərdə olmuş, qardaş ölkənin dövlət və hökumət rəhbərləri Azərbaycana çoxsaylı səfərlər etmişdir. Bu intensiv təmaslar, daimi məsləhətləşmələr fonunda iki ölkənin xarici siyasəti, beynəlxalq müstəvidəki addımları daha əlaqəli və bir-birini tamamlayan oldu. Bu siyasət sayəsində Azərbaycan müstəqil dövlət quruculuğunda üzləşdiyi çətinliklərdə hər zaman Türkiyəni yanında gördü.

Müasir dövrdə Türkiyədə də Azərbaycan dostluğunun fəaliyyətində xeyli canlanma yaranmaqdadır. Türkiyədə Azərbaycan parkının salınması, Azərbaycan evlərinin və təşkilatlarının sayının artması, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin büstünün İzmir şəhərində qoyulması, Türkiyənin çeşidli televiziya kanallarında Azərbaycana həsr olunan proqramların sayının çoxalması (www/anl.az/down/meqale/olaylar/və). hadisələr və proseslər belə bir nəticəyə gəlməyə imkan verir. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin Türkiyədən keçməsi, dövlətlərarası münasibətlərin inkişaf etməsi, Azərbaycan diasporunun mövqeyinin qardaş ölkədə güclənməsinə şərait yaradır. İki ölkə arasında münasibətlərin indiki səviyyəsi Azərbaycan və Türk diasporlarının əlaqələrinin möhkəmlənməsi üçün etibarlı zəmin yaratmışdır. Azərbaycan və türk icmaları bu zəminə əsaslanaraq bir sıra ölkələrdə birgə tədbirlər təşkil etmiş, xalqlarımızın tarixi və müasir inkişaf səviyyəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində səylərini birləşdirməyə çalışmışlar.

Azərbaycan və Türkiyə Respublikaları arasındakı əlaqələrin inkişaf etdirilməsi, Azərbaycan və türk diasporları arasında əməkdaşlığın yaranması Ümummilli lider Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Prezident İlham Əliyevin də zamanında əsas prioritet təşkil etdi. Belə ki, Ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət" tarixi kəlamını əsas götürən İlham Əliyev "Bir millətin iki diasporu olmaz" kəlamını söyləməklə Azərbaycan və Türk diasporları arasında əməkdaşlığın birgə fəaliyyətinin təməlini qoydu. Bunun davamı olaraq Şuşa Bəyannaməsində yer alan diasporlararası məsələlər isə Azərbaycan və Türkiyə diasporunun, ümumiyyətlə türkdilli ölkələrin diasporlarının birgə fəaliyyət strategiyasının perspektivlərinə yeni üfüqlər açdı.

Prezident İlham Əliyevin təşəbbüsü ilə Türk Dövlət və Cəmiyyətlərinin Dostluq, Qardaşlıq və Əməkdaşlıq toplantısının Bakıda keçirilməsi, Azərbaycanın Türk dünyasının birlik və bərabərliyi istiqamətində öncül yerlərdən birini tutması deyilənləri təsdiqləyir. Xatırladaq ki, Türk xalqları arasında əlaqələrin inkişafı məqsədilə 1993-cü ildən etibarən Türk Dövlət və Cəmiyyətlərinin Dostluq, Qardaşlıq və Əməkdaşlıq qurultaylarının keçirilməsi ənənəsinin əsası qoyulmuşdur. Həmin dövrdən keçirilmiş qurultayların sənədlərində dünyada baş verən qlobal və regional münaqişələrlə əlaqədar Türk dünyasının tarixi, mədəni və coğrafi amillərdən qaynaqlanan səmərəli potensialından istifadə edərək sülhün və təhlükəsizliyin təmin olunması istiqamətində birgə səylərin intensivləşdirilməsinin zəruriliyi qeyd edilmişdir. Türk dünyası ölkələrinin bir-birinin problemlərinə daha həssas yanaşması təqdir olunmuş və bu tendensiyanın yüksələn xətlə inkişafı üçün müvafiq tədbirlərin görülməsinin vacibliyi vurğulanmışdır. [16] (Azərbaycan-Türkiyə: bir millət, iki dövlət: vahid diaspor, 2007). Azərbaycan və Türkiyə diaspor sahəsində əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində bir sıra mədəni-kütləvi tədbirlər həyata keçirmişlər. Məsələn, 2003-cü il dekabr ayında Ankara şəhərində təşkil edilmiş "Türkiyə-Azərbaycan əlaqələri XXI əsrdə" Forumu belə tədbirlərdən biridir (Azərbaycan-Türkiyə: bir millət, iki dövlət: vahid diaspor, 2007). Tədbirdə Azərbaycan və Türkiyənin dövlət və hökumət nümayəndələri, parlament üzvləri, elm və mədəniyyət xadimləri, nüfuzlu iş adamları, Ankarada akreditə olunan xarici ölkə səfirləri, diaspor təşkilatlarının nümayəndələri iştirak etmişlər. Forumun əvvəlində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tədbir iştirakçılarına müraciəti oxunmuşdur. Müraciətdə Prezidentin toplantı iştirakçılarına səmimi arzuları ifadə edilmiş, bir millət, iki dövlət olan, münasibətləri qardaşlıq-dostluq təməli üzərində qurulan Azərbaycan və Türkiyə arasında əlaqələrin ardıcıl inkişafının xalqlarımızın tarixi mənafelərindən irəli gəldiyi xüsusi olaraq vurğulanmışdır (Azərbaycan diasporu, 2012). Forumda iki ölkə arasında siyasi, iqtisadi və mədəni əlaqələrin inkişaf etdirilməsi məsələləri də müzakirə edilmişdir. Müzakirələr zamanı xalqlarımızın ümumi maraqlarına uyğun olaraq, Azərbaycan və Türk diasporları arasında əlaqələrin intensivləşdirilməsi, onların birgə fəaliyyətlərinin təmin olunması barədə ətraflı fikir mübadiləsi aparılmışdır.

"Türkiyə-Azərbaycan əlaqələri XXI əsrdə" forumunun əhəmiyyətli nəticələrindən biri Azərbaycan və Türk diaspor təşkilatları arasında əməkdaşlıq məsələsinin gündəmə gətirilməsi olmuşdur. Bu forumdan sonra Azərbaycan və Türk icmaları arasında əlaqələr genişlənməyə

[16] Azərbaycan-Türkiyə: bir millət, iki dövlət: vahid diaspor, Bakı: "Çaşıoğlu", 2007, s. 43.

başlamış, birgə tədbirlər, etiraz aksiyaları, elmi-praktik konfransların keçirilməsi üçün zəmin yaranmışdır.

Azərbaycan və Türkiyə diasporları arasında əməkdaşlığın nümunələrindən biri də 2004-cü ilin yanvar ayının 30-da Amerika Birləşmiş Ştatlarında fəaliyyət göstərən və 57 türk icmasını özündə birləşdirən Amerika Türk Assosiasiyaları Assambleyasının XXIV Qurultayının keçirilməsi olmuşdur. Qurultayın bir gününün Azərbaycana həsr olunması Azərbaycan və Türkiyə diasporları əməkdaşlığına layiqli bir töhfə olmuşdur. Vaşinqton şəhərində keçirilmiş qurultayda ABŞ-nın və Türkiyənin tanınmış siyasət və dövlət adamları, o cümlədən Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan, Türk və Azərbaycan diaspor təşkilatlarının nümayəndələri iştirak etmişlər (Azərbaycan-Türkiyə: bir millət, iki dövlət: vahid diaspor, 2007). Tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qurultay iştirakçılarına ünvanlanmış müraciəti oxunmuşdur: "Düşünürəm ki, həm Türkiyəni, həm də Azərbaycanı təmsil edən insanlar bundan sonra da bir olacaq, birlikdə fəaliyyət göstərəcək, sevincimizi və kədərimizi birlikdə bölüşəcəklər. Böyük Atatürkün birlik ideyaları və Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" istəyi bizim fəaliyyətimizi hər zaman vahid istiqamətə yönəldəcəkdir" (Əliyev, 2009). Türkiyə və Azərbaycan diaspor nümayəndələrinin bu qurultayda birgə iştirakını yüksək dəyərləndirən qardaş ölkənin Baş naziri Rəcəb Tayyib Ərdoğan çıxışının əsas hissəsini Azərbaycan-Türkiyə münasibətlərinə həsr edərək bu sahədə qazanılmış nailiyyətlər, qarşıda duran problemlər, Azərbaycan və Türk diasporlarının əlaqələrinin daha da möhkəmləndirilməsi yolları barədə fikirlərini açıqlamışdır.

Şübhəsiz, bu sahədə Azərbaycan icmalarının fəaliyyətinin uğurunu təmin edən əsas amil türk və Azərbaycan diaspor təşkilatlarının vəhdətdə çalışması, eyni məqsəd və amal uğrunda qarşılıqlı əməkdaşlıqlarıdır. Prezident İlham Əliyev Türkiyədə işgüzar səfərdə olarkən Azərbaycan diaspor təşkilatlarının nümayəndələrini əmin etmişdir ki, dövlətimiz və hökumətimiz Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması işində onlara lazım olan dəstəyi verəcəkdir. Bu kontekstdə Türkiyə və Azərbaycan diaspor təşkilatlarının müxtəlif ölkələrdə birdə layihələr, tədbirlər keçirməsi əsas şərtdir.

Bu şərtləri nəzərə alaraq 2006-cı il sentyabr ayının 18-20-də Türkiyə Respublikasının Antalya şəhərində Türk Dövlət və Cəmiyyətlərinin X Dostluq, Qardaşlıq və Əməkdaşlıq qurultayı keçirildi. Qurultayda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iştirak etmiş, türk dünyası üçün mühüm əhəmiyyət kəsb edən qərarların qəbul ediləcəyinə əmin olduğunu bildirmişdir (Əsgərova, 2021). Türkiyə-Azərbaycan münasibətlərinin indi ən yüksək zirvədə olduğunu deyən Prezident bu münasibətləri bir neçə amilin – tarixi köklərimiz, etnik

mənsubiyyətimiz, dilimiz, mədəniyyətimiz, milli-mənəvi dəyərlərimiz və ənənələrimizin şərtləndiyini söyləmişdir (Əliyev, 2014). Qurultayda dövlət başçısı Azərbaycan və Türkiyə diaspor təşkilatlarının xaricdəki fəaliyyətinə böyük önəm verərək qeyd etmişdir ki,

"*...Diaspor təşkilatlarımız xaricdə çox sıx əməkdaşlıq edir. Türkiyə və Azərbaycan diasporlarının müxtəlif ölkələrdə birgə layihələri, birgə tədbirləri çox uğurludur və əminəm ki, bu, gələcəkdə bizim imkanlarımızı daha da artıracaqdır. Hesab edirəm ki, biz gələn il Türkiyə və Azərbaycan diaspora təşkilatları rəhbərlərinin forumunun keçirilməsi məsələsinə də baxmalıyıq. Mən təklif edirəm ki, gələn ilin birinci yarısında Azərbaycanda birinci forumu keçirək. Türkiyə və Azərbaycan diasporlarının birgə fəaliyyətini bir daha təhlil edib, onları istiqamətləndirək*" (Əliyev, 2014, s. 221-222).

Beləliklə, Prezident İlham Əliyev Qurultayda Türkiyə və Azərbaycan diaspor təşkilatları rəhbərlərinin forumunun keçirilməsi təşəbbüsünü irəli sürmüşdür. Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayı Azərbaycan və Türk diaspor təşkilatları arasında əməkdaşlığın daha geniş coğrafiyanı əhatə etdiyini göstərdi. Bu qurultayda səslənmiş ideya və təkliflər nəinki Azərbaycan və Türk diasporlarının, habelə türk dövlətlərin qarşılıqlı münasibətlərinin inkişafına xidmət edir. Prezident İlham Əliyevin qurultaydakı nitqində öz əksini tapmış Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I forumunun keçirilməsi ilə bağlı tövsiyəsi xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan və Türk icmalarının fəaliyyətinin koordinasiya edilməsi, onların mövcud potensialının xalqlarımızın tarixi maraqlarının qorunması, habelə ölkələrimizin milli mənafelərinin müdafiəsi prosesinə cəlb edilməsi baxımından olduqca mühüm əhəmiyyət kəsb etmişdir.

Türkiyə Respublikasının müvafiq dövlət orqanları ilə aparılmış müzakirələr zamanı müəyyən edilmişdir ki, Türkiyə də forumun Azərbaycan və Türk diaspor təşkilatlarının əməkdaşlığı tarixində yeni bir səhifə açacağına, ölkələrimizin milli maraqlarının müdafiəsi işində diasporun potensialından daha səmərəli istifadə edilməsi üçün şərait yaradacağına inanır (Qurultaya hesabat, 2011). Türk Dövlət və Cəmiyyətlərinin Dostluq, Qardaşlıq və Əməkdaşlıq qurultayında irəli sürülən təkliflərə əsasən Prezident İlham Əliyevin təşəbbüsü ilə 2007-ci il mart ayının 9-da Bakı şəhərində Dünya Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I Forumu keçirildi (Qurultaya hesabat, 2011, s. 100). Forum Azərbaycan Respublikası Prezidentinin Türk dünyasının birliyinə verdiyi önəmin parlaq təzahürü kimi tarixə düşmüşdür. Forumda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan və Şimali Kipr türk xalqının lideri Mehmet Əli Tələtin iştirakı tədbirin əhəmiyyətini daha da artırmış, onun bütün türk xalqları üçün mühüm önəmə malik

olduğunu təsdiqləyən amil olmuşdur. Forumda türk xalqlarının diaspor təşkilatları arasında əməkdaşlığının inkişaf etdirilməsi, sosial-mədəni, ictimai-siyasi əlaqələrin dərinləşdirilməsi, mədəniyyət, iqtisadiyyat və digər sahələrlə bağlı ortaq layihələrin həyata keçirilməsi ilə bağlı bir sıra məsələlər, o cümlədən "Azərbaycan və Türk diaspor təşkilatının birgə fəaliyyət strategiyası" müzakirə edilmişdir. Azərbaycan və Türk diasporunun birgə fəaliyyət strategiyasının hazırlanması təşəbbüsündə əsas məqsəd ölkələrimiz arasındakı strateji tərəfdaşlıq əlaqələrinə, xalqlarımızı birləşdirən etnik mənşə, ümumi dil və mədəniyyət amilinə əsaslanaraq diaspor təşkilatlarının fəaliyyətini vahid konsepsiya əsasında əlaqələndirmək, Azərbaycan və Türkiyə haqqında məlumatların dünya ictimaiyyətinə çatdırılması istiqamətində həyata keçirilən tədbirlərin effektini və səmərəliliyini artırmaq, habelə erməni diaspor və lobbisinin çoxşaxəli anti-təbliğat kampaniyasının qarşısını almaq üçün səyləri birləşdirməkdən ibarət olmuşdur.

**Nəticə**

Yekun olaraq qeyd etmək lazımdır ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etməsindən sonra iki qardaş ölkə arasında münasibətlər uğurlu bir istiqamətdə inkişaf etməyə başlamışdır. Tarixi yaxınlığa, din və dil birliyinə əsaslanan mədəniyyət, elm və təhsil diaspor sahələrindəki əlaqələr həm də müasir siyasi və iqtisadi reallıqlar fonunda inkişaf etməkdədir. Əlbəttə ki, bu əlaqələr birdən-birə yaranmamışdır. Azərbaycan-Türkiyə münasibətlərinin bugünki səviyyəsi hər iki ölkənin xalqlarının tarixi mənafelərini və siyasi iradəsini ifadə edir. Türkiyə və Azərbaycan arasındakı dostluq və qardaşlıq münasibətlərinin inkişafı Türkiyədə Azərbaycan diasporunun inkişafına şərait yaradır, Türkiyədə yaşayan soydaşlarımızla əlaqələrin möhkəmləndirilməsi milli dövlətçiliyimiz baxımından müasir dövrümüzün ən vacib və son dərəcədə mühüm olan bir sahəsidir. Elmi işin məqsədindən doğan ümumiləşdirmələr aparılaraq, aşağıdakı nəticəyə gəlmək olar:

- Azərbaycan-Türkiyə münasibətlərində elmi-mədəni, təhsil, diaspor sahələrində əlaqələrin yenidən qurulması müstəqilliyimizlə bağlı olmuşdur.
- Eyni soy-kökdən olan türk xalqlarının yeni birliyi, din və dil bağlılığı və yeni əlaqələrin qurulması Türkiyə Cümhuriyyətində Azərbaycan diasporunun rolunu artırmışdır.
- Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması Azərbaycan və Türk diaspor təşkilatlarının birliyini zəruri etmişdir.
- Yetmiş il qadağan edilmiş elmi-mədəni, təhsil, diaspor əlaqələrinin öyrənilməsi yeni səhifələr açmışdır.

- Azərbaycan-Türkiyə əlaqələrinin inkişaf etdiyi bu dövr Azərbaycan-Türk diaspor təşkilatlarının birliyinə səbəb olmuşdur.

**Ədəbiyyat**

Abdullayev, M. (1997). *Azərbaycan-Türkiyə əlaqələri.* Mütərcim.

*Azərbaycan diasporu: Ensiklopedik məlumatlar toplusu.* (2012). Səs MMC.

*Azərbaycan diasporuna dövlət qayğısı, Heydər Əliyevin çıxışları.* (I kitab). (2003). Çaşıoğlu.

Azərbaycan Milli Dövlət Arxiv: f. 3189, siy. 4, s. v. 247, vər. 73.

Azərbaycan Milli Dövlət Arxivi: f. 3189, siy. 4, s. v. 247, vər. 68.

Azərbaycan Milli Dövlət Arxivi: f. 3189, siy. 4, s. v. 415, vər. 8.

Azərbaycan Milli Dövlət Arxivi: f. 3189, siy. 4, s. v. 93, vər. 297.

Azərbaycan Milli Dövlət Arxivi: f. 3189, siy. 4, s. vər. 161, vər. 15.

*Azərbaycan Respublikası MEA-sı Xarici Əlaqələr Şöbəsinin türkdilli ölkələrlə əməkdaşlıq haqqında sənədlər qovluğu.* 1991-2000-ci illər, v. 166.

*Azərbaycan Respublikası MEA-sı Xarici Əlaqələr Şöbəsinin türkdilli ölkələrlə əməkdaşlıq haqqında sənədlər qovluğu.* 1991-2000-ci illər, v. 32-34.

*Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Beynəlxalq Əlaqələr Şöbəsinin Türkiyə Cümhuriyyəti ilə əməkdaşlıq üzrə qovluğu.* 2003-2010-cu illər.

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin Xarici Əlaqələr şöbəsinin cari arxivi. Türkdilli ölkələrlə əməkdaşlıq üzrə iş qovluğu.* 1991-2000-ci illər, v. 84.

*Azərbaycan-Türkiyə əlaqələri və Heydər Əliyev (1-ci kitab), 1991-2001.* (2002). Qafqaz Universiteti nəşri.

Babanlı, Y. (2016). *Azərbaycan Respublikasının xarici siyasəti və diaspor fəaliyyəti (1991-2011).* Elm və təhsil.

*Bir Millet İki Devlet. (Ulu Önder Haydar Aliyevin Azerbaycan-Türkiye ilişkileri hakkında nutukları ve konuşmaları)* (2023). (Yayına haz. K. Şükürov). Elm.

Əhmədov, Ə. (2009). *Azərbaycan Beynəlxalq münasibətlərdə (Türkdilli dövlətlərlə əlaqələr. XX əsrin 90-cı illəri).* Elm və təhsil.

Əliyev, İ. (2009). *İnkişaf – məqsədimizdir, ikinci kitab.* Oktyabr 2003 – fevral 2004. Azərnəşr.

Əliyev, Z. (2005). Dünya diasporları (nəzəriyyə və təcrübə). Qismət.

Əliyev, H. (19989. *Müstəqilliyimiz əbədidir (çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, müraciətlər, fərmanlar).* Azərnəşr.

Əliyev, İ. (2009). *İnkişaf – məqsədimizdir.* Azərnəşr.

Əliyev, İ. (2014). *İnkişaf məqsədimizdir, on doqquzuncu kitab.* Avqust 2006 – oktyabr 2006. Azərnəşr.

Əsgərova, Z. (2021). *Türkiyədə Azərbaycan diasporunun formalaşması – XX əsr.* Afpoliqraf.

*Heydər Əliyev və Şərq.* (2002). (6 cilddə). (I kitab). Tural-Ə NPM.

Qasımov, M. C. (1992). *Azərbaycan Respublikası dünya meridianlarında.* Gənclik.

*Qurultaya hesabat.* Adventa

Milli Dövlət Arxivi: f. 3189, siy. 4, s. v. 415, vər. 7.

Səmədov D. A. (2004). *XX əsrin 90-cı illərində Azərbaycan-Türkiyə elmi-mədəni əlaqələri.* Gəncə poliqrafiya.

Səmədov, D. A. (20049. XX əsrin 90-cı illərində Azərbaycan-Türkiyə elmi-mədəni əlaqələri. Gəncə poliqrafiya.

Təhsil və Mədəniyyət Nazirliyi ilə yazışma: Azərbaycan Milli Dövlət Arxivi: f. 3189, siy. 4, s. v. 229, vər. 173.

Təhsil və Mədəniyyət Nazirliyi ilə yazışma: Azərbaycan Milli Dövlət Arxivi: f. 3189, siy. 4, s. v. 229, vər. 174.

Təhsil və Mədəniyyət Nazirliyi ilə yazışma: Azərbaycan Milli Dövlət Arxivi: f. 3189, siy. 4, s. v. 229, vər. 172.

Təhsil və Mədəniyyət Nazirliyi ilə yazışma: Azərbaycan Milli Dövlət Arxivi: f. 3189, siy. 4, s. v. 229, vər. 175.

*Türkiye ile Türk Cumhuriyyetleri ve Türk toplumları arasında yapılan anlaşmalar, ilişkiler ve faaliyyetler (II kitab).* (1993). T. C. Milli Eğitim Bakanlığı.

*Türkiye ile Türk Cümhuriyyetleri ve Türk toplulukları arasında yapılmış anlaşmalar, ilişkiler ve failiyyetleri (II kitab) 1990-1993.* (1993). T. C. Milli Eğitim Bakanlığı.

www/anl.az/down/meqale/olaylar/2012/mart.